Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.14.

# 4 milyard dollarlıq qeyri-neft məhsulları

## Bu, ixrac üzrə gələn ilin minimum hədəfidir



**Son illər aparılan iqtisadi islahatlar sayəsində Azərbaycanda qeyri-neft sektorunun davamlı inkişafı təmin olunub. Paralel olaraq ixracın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlər ölkəmizdə istehsal edilən məhsullarımızı xarici bazarlarda tanıdıb və onların rəqabət qabiliyyətini yüksəldib.**

Bu işdə "Made in Azerbaijan" brendinin ölkə xaricində tanıdılması və ixracın stimullaşdırılması məqsədilə fəaliyyət göstərən ixracın təşviqi mexanizmləri əhəmiyyətli rola malikdir. Həmin istiqamətdə görülən tədbirlər sayəsində son 5 ildə (2019-2024) qeyri-neft məhsullarının ixracı 72 faiz artıb. Hazırda Prezident İlham Əliyevin 2016-cı il 5 oktyabr tarixli fərmanı ilə təsdiq olunmuş qaydada təsbit edilmiş 10 dəstək mexanizmi vasitəsilə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi həyata keçirilir. Bura ixrac və alıcı missiyalarının təşkili, xarici bazarların araşdırılması, beynəlxalq sərgi və yarmarkalarda vahid stend ilə və ya fərdi qaydada iştirak, xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda və ya mağaza şəbəkələrində, o cümlədən rüsumsuz ticarət ("duty free") mağazalarında "Made in Azerbaijan" rəflərinin təşkili, xarici ölkələrin ictimai yerlərində və mediasında "Made in Azerbaijan" brendinin təbliği, həmçinin beynəlxalq sertifikatların alınmasına dəstək, ixracyönümlü məhsul və texnologiyaların inkişafına yönələn tədqiqat-inkişaf layihələrinin həyata keçirilməsinə dəstək mexanizmləri daxildir.

Qeyri-neft ixracının şaxələndirilməsi və ixrac bazarlarının diversifikasiyası üçün yeni dəstək tədbirlərinin tətbiqi də nəzərdə tutulur. Belə ki, beynəlxalq elektron ticarət platformalarında qeyri-neft məhsullarının satışının təşkilinə dəstək, xarici tərəfdaşlarla danışıqların aparılması zamanı qeyri-neft məhsullarının nümunələrinin göndərilməsinə yardımçı olmaq, ixrac zamanı əqli mülkiyyət hüquqlarının xarici ölkələrdə qeydiyyata alınmasına kömək, həmçinin qeyri-neft məhsullarının daşınması üçün dəstək kimi yeni mexanizmlərin tətbiqi gözlənilir.

Xatırladaq ki, xarici bazarlara çıxmaq istəyən sahibkar "Made in Azerbaijan" əmtəə nişanından istifadə hüququnu əldə etmək üçün İxracın və İnvestisiyaların Təşviqi Agentliyinə - AZPROMO-ya müraciət etməlidir. Müraciət müsbət qiymətləndirildikdə, ona AZPROMO tərəfindən lisenziya müqaviləsi əsasında "Made in Azerbaijan" əmtəə nişanından istifadə etmək hüququ verilir. Lisenziya müqaviləsi Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində dövlət qeydiyyatına alınır, həmin lisenziya müqaviləsinin dövlət qeydiyyatına alınması, müqaviləyə dəyişikliklər, xitam və digər məsələlərlə bağlı xərclər sahibkar tərəfindən ödənilir.

Onu da qeyd edək ki, qeyri-neft məhsulları ixracının təşviqinə yönəlmiş kompleks yanaşma dövlətin müəyyənləşdirdiyi strateji xəttə uyğun aparılır. Belə ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planına əsasən, 2026-cı ilin yekunlarına görə, Azərbaycan mənşəli qeyri-neft məhsullarının ixracının dəyərinin 4 milyard dollara çatdırılması hədəfə alınıb.

Amma indidən demək olar ki, qeyri-neft ixracının şaxələndirilməsi, ixracatçılar üçün institusional və operativ dəstək mexanizmlərinin tətbiqi, o cümlədən beynəlxalq bazarlara çıxış imkanlarının genişləndirilməsi istiqamətində həyata keçirilən sistemli tədbirlərin sayəsində 2024-cü ildə qeyri-neft məhsullarının ixracının dəyəri 3,4 milyard dollar təşkil edərək rekord səviyyəsinə çatıb. Cari ilin yanvar-iyul ayları ərzində qeyri-neft məhsulları ixracının həcmi isə 2 milyard dollardan çox olub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz yüksəkdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*